EDITORS
PROF. DR. MUHLİSE COSGUN ÖGEYİK
ASSOC. PROF. DR. KUTAY UZUN

# 14TH INTERNATIONAL ISTANBUL SCIENTIFIC RESEARCH CONGRESS ON HUMANITIES AND SOCIAL SCIENCES PROCEEDINGS BOOK

ISBN: 978-605-72563-9-3



BZT ACADEMY

TURKIYE, UNITED STATES OF AMERICA, PHILIPPINES, MINDANAO, NORTH MACEDONIA, PAKISTAN, INDIA, MALAYSIA, BANGLADESH, NIGERIA, INDONESIA, ALGERIA, AZERBAIJAN, KAZAKHISTAN, POLAND, RUSSIA, CHINA, UZBEKISTAN.

ISBN: 978-625-6879-19-5

TURKIYE, UNITED STATES OF AMERICA, PHILIPPINES, MINDANAO, NORTH MACEDONIA, PAKISTAN, INDIA, MALAYSIA, BANGLADESH, NIGERIA, INDONESIA, ALGERIA, AZERBAIJAN, KAZAKHISTAN, POLAND, RUSSIA, CHINA, UZBEKISTAN.

# 14TH INTERNATIONAL ISTANBUL SCIENTIFIC RESEARCH CONGRESS ON HUMANITIES AND SOCIAL SCIENCES PROCEEDINGS BOOK

*AUGUST 26-28, 2023*

(ONLINE & FACE TO FACE PARTICIPATION)

ISBN: 978-625-6879-19-5

EDITORS

PROF. DR. MUHLİSE COSGUN ÖGEYİK
ASSOC. PROF. DR. KUTAY UZUN

BZT AKADEMİ YAYINEVİ®
BZT ACADEMY PUBLISHING HOUSE©

TURKEY, GERMANY
TR: +90543 671 0123 GR: +491774586777

# 14th INTERNATIONAL İSTANBUL SCIENTIFIC RESEARCH CONGRESS ON HUMANITIES AND SOCIAL SCIENCES

**AUGUST 26-28, 2023**

**ONLINE & IN-PERSON PARTICIPATION**

**ZOOM & İSTANBUL, TURKIYE**

# CONGRESS PROCEEDINGS BOOK

## EDITORS

**Prof. Dr. Muhlise COSGUN ÖGEYIK**

**Assoc. Prof. Dr. Kutay UZUN**

**BZT AKADEMİ YAYINEVİ®**

TURKEY, GERMANY

TR: +90543 671 0123 GR: +491774586777

internationalistanbulcongress@gmail.com

https://www.internationalistanbulcongress.com/

All rights reserved

**BZT AKADEMİ YAYINEVİ®**

**BZT ACADEMY PUBLISHING HOUSE**

**Publishing Date: 11.09.2023**

**ISBN: 978-625-6879-19-5**

# CONGRESS ID

## CONGRESS NAME

14th INTERNATIONAL İSTANBUL CONGRESS ON HUMANITIES AND SOCIAL SCIENCES

## DATE AND VENUE

AUGUST 26-28, 2023

*ONLINE & IN-PERSON PARTICIPATION (İSTANBUL, TÜRKİYE)*

*(FROM 18 DIFFERENT COUNTRIES)*

***Türkiye, United States of America, Philippines, Mindanao, North Macedonia, Pakistan, India, Malaysia, Bangladesh, Nigeria, Indonesia, Algeria, Azerbaijan, Kazakhstan, Poland, Russia, China, Uzbekistan..***

## ORGANIZERS & PARTICIPANT INSTITUTIONS

BZT Academy, Türkiye

Azerbaijan National Academy of Sciences, Azerbaijan
Tetova University, North Macedonia
Mindano University, Philippines

### Presidents of Organization Committee

**Prof. Dr. Muhlise COŞGUN ÖGEYİK**
**Assoc. Prof. Dr. Kutay UZUN**

### President of Scientific Committee

**Prof. Dr. Muhlise COŞGUN ÖGEYİK**
**Assoc. Prof. Dr. Kutay UZUN**

### President of Coordinators' / General Coordinator

**Dr. Baha Ahmet YILMAZ**

### ACCEPTED PAPERS

*89 Turkish Participants*
*103 Foreign Participants*
***%55 Foreign Participant Rate***
***%45 Turkish Participant Rate***

### REFUSED PAPERS

*3 Foreign Participants*

### EVALUATION PROCESS

**All Submissions Have Passed a Double-Blind Referee Evaluation Process**
**All Responsibility for the Works Belongs to the Author**

# APPLICATION OF COGNITIVE TAXONOMY IN FINE ARTS TEACHING METHODOLOGY

**Emil Ağayev**

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi

ORCID NO: 0000-0001-9354-0839

**Öğr.Gör.Elçin Mustafayev**

Bilecik Şeyh Edebali Üniversitesi Güzel Sanatlar ve Tasarım Fakültesi Resim bölümü (Öğretim Görevlisi)

https://orcid.org/0000-0001-7329-444

## Abstract

The cognitive (cognitive) field is the understanding of the world, the surrounding world and the person himself. This field also relies on intellectual and thinking skills. Remembering, perceiving, understanding, performing, comparing, etc. is considered a cognitive activity. In this article, different stages of cognitive taxonomy are analyzed for teaching methodology of visual arts.

**Keywords:** Fine art, cognition, taxonomy, methodology, education

## TƏSVİRİ SƏNƏT FƏNNİNİN TƏDRİSİ METODİKASINDA İDRAK TAKSONOMİYASININ TƏTBİQİ

**Xülasə.** İdraki (koqnitiv) sahə dünyanın, ətraf aləmin və insanın özünün dərk edilməsidir. Bu sahə həmçinin intelektual və düşüncə bacarığına da əsaslanır. Yada salmaq, qavramaq, dərk etmək, həyata keçirmək, müqayisə etmək və s. idraki fəaliyyət hesab olunur. Bu məqalədə idrak taksonomiyasının müxtəlif mərhələləri təsviri sənətin tədris metodikası üçün təhlil edilmişdir.

**Açar sözlər:** Təsviri sənət, idrak, taksonomiya, metodika, təhsil

## GİRİŞ.

XX əsrin 50-ci illərində Benjamin Blumun rəhbərlik etdiyi işçi qrupu bu sahədə yenilik edərək təlim fəaliyyətinin 3 sahədən ibarət təsnifatını hazırlamışdır:

1.İdraki sahə

2.Affektiv (emosional) sahə

3.Psixomotor (sahə)

İdraki (koqnitiv) sahə dünyanın, ətraf aləmin və insanın özünün dərk edilməsidir. Bu sahə həmçinin intelektual və düşüncə bacarığına da əsaslanır. Yada salmaq, qavramaq, dərk etmək, həyata keçirmək, müqayisə etmək və s. idraki fəaliyyət hesab olunur. Blum 1956-cı ildə idraki sahənin və təlim nailiyyətlərinin səviyyələrini hazırlamış, 1990-cı illərdə tələbələri Anderson və Krasvol bu yanaşmanı daha da təkmilləşdirmiş, 2001-ci ildə prosesi yekunlaşdırmışlar.

## MÖVZUNUN İŞLƏNMƏ DƏRƏCƏSİ.

Müasir idrak taksonomiyasının mərhələləri aşağıdakılardı:

**1.Xatırlamaq.** Təsviri sənət fənninin idrak taksonomiyasının xatırlamaq mərhələsində şagirdlər burada əzbər və hafizəyə əsaslanan biliklərinə əsaslanır. Əvvəl əldə etdiyi bilikdən fakt, termin, əsas konsept və məlumatları xatırlayıb yada salmaqdır. Şagird məlumatı heç bir dəyişiklik etmədən, öz sözləri ilə ifadə edir. Bu mərhələdə şagirdlərə muzeylər haqqında mövzudan Luvr, Viktoriya və Albert muzeylərinin hansı ölkədə yerləşməsini müəllim soruşmalıdır. Xatırlamaq mərhələsində müəllim Qəzənfər Xalıqovun müəllifi olduğu Nizami Gəncəvi portretini göstərib obrazın ikonoqrafik təhlili və tanıdılmasını şagirdlərdən soruşa bilər.



İLL 1. Qəzənfər Xalıqov "Nizami Gəncəvi"

**2.Anlamaq.** Təsviri sənət fənninin idrak taksonomiyasının bu mərhələsində şagird fakt, məlumatlardan məna çıxararaq, yeni bilikləri ilə fərqləndirməlidir. Məlumatın müxtəlif formada təqdim edilməsi, izahat verilməsi, nəticə çıxarılması bu mərhələnin əsas xüsusiyyətidir. Müəllim şagirddən impressionizm və postimpressionizm cərəyanlarının oxşar-fərqli cəhətlərini soruşmaqla, həm də müqayisəetmə bacarıqlarını inkişaf etdirə bilər. Salvador Dali yaradıcılığını janrlar üzrə qruplaşdıraraq, təsnif etmək tapşırığı şagirdlərdə anlamaq mərhələsini ön plana çıxarır.



İLL 2. Salvador Dali "Yaddaşın daimiliyi"



İLL 3. Salvador Dali "Qalateya sferalarla"

**3.Tətbiq etmək.** Təsviri sənət fənninin tədrisi metodikasının idrak taksonomiyasının bu mərhələsində müxtəlif prosedurlardan istifadə edə bilmək tələb olunur. Yeni şagird anladığı məlumatı icra edərək, vəziyyətə uyğunlaşdırıb tapşırığı yerinə yetirməlidir. Müəllim isti və soyuq rəngləri başa saldıqdan sonra şagirdlərə natürmort janrında əsər işləyərək, bu rənglərdən istifadəni tətbiq edərək onlarda bu mövzunu daha da möhkəmlədə bilər. Təsviri sənətdə perspektiv mövzusunu keçəndən sonra müəllim əsərdə onu tətbiq etməyi tapşırmalıdır.

**4. Təhlil etmək.** Təsviri sənət fənninin tədrisi metodikasının idrak taksonomiyasının bu mərhələsində şagirdlər rəssam yaradıcılığını, müxtəlif janrlar və cərəyanlarda işlənilən əsərləri ayrı-ayrı hissələrə bölüb onların bir-biri ilə fərqliliyini, eyni zamanda müqayisə edərək, rəssamın mövqeyinin müəyyənləşdirilməsi və əsaslandırılması həyata keçirilir. Müəllim Pablo Pikasso yaradıcılığını keçəndən sonra rəssamın hər bir dövrünü fərqləndirərək, müqayisə etməlidir.



İLL 4. Pablo Pikasso "Avinyon qızıları"



İLL 5. Pablo Pikasso "Masada meyvələrlə natürmort"

**5.Dəyərləndirmək.** Təsviri sənət fənninin tədrisi metodikasında idrak taksonomiyanın bu mərhələsində şagird meyarlar və standartlar əsasında mühakimə etmək kimi xarakterizə etməli, fikir bildirərkən hazır meyarlara əsaslanmalı, öz mövqeyini bildirməlidir. Müəllim xalq rəssamı Ömər Eldarovun yaradıcılığı haqqında fikirlərini müdafiə edərkən şagirddən sənətkarın yaradıcılığını dəyərləndirməyi tapşırıq kimi verməlidir.



İLL 6. Ömər Eldarov "Xurşudbanu Nətəvan"

**6.Yaratmaq.** Təsviri sənət fənninin tədrisi metodikasının idrak taksonomiyasının bu mərhələsində şagirdlər bəzi element və hissələri əvvəllər aydın şəkildə verilməyən nümunə və struktur formasında yenidən tərtib edirlər. Şagirdə xalça mövzusunu keçməmişdən qabaq öz fikirlərindən ibarət bu mövzuda yazı hazırlamağı tapşırmalıdır. Müəllim janrları və cərəyanları keçəndən sonra şagirdddən yeni əsər yaratmağı tapşırmalıdır.

## NƏTİCƏ.

"Təsviri sənət fənninin tədrisi metodikasında idrak taksonomiyasının tətbiqi" məqaləsinin əsas nəticələri aşağıdakılardı:

-Təsviri sənət fənninin tədrisi metodikasında idrak taksonomiyasının rolu araşdırılmışdır;

-İdrak taksonomiyasının müxtəlif mərhələləri təsviri sənət fənninin tədrisi metodikasının inkişafı üçün müxtəlif mövzuların təqdim edilməsi kontekstində araşdırılmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1.I sinif təsviri incəsənət dərsliyi. Bakı- 2021. 88 s

2.II sinif təsviri incəsənət dərsliyi. Bakı -2021 .56 s

3.III sinif təsviri incəsənət dərsliyi. Bakı-2022. 64 s

4.IV sinif təsviri incəsənət dərsliyi. Bakı-2019. 72 s

5.V sinif təsviri incəsənət dərsliyi. Bakı -2020. 80 s

6.VI sinif təsviri incəsənət dərsliyi. Bakı -2021. 96 s

7.VII sinif təsviri incəsənət dərsliyi. Bakı -2022. 96 s

8.VIII sinif təsviri incəsənət dərsliyi. Bakı -2019. 96 s

9.IX sinif təsviri incəsənət dərsliyi. Bakı -2020. 136 s

10. Həsənov İ., Rüstəmova A., Babayeva N. "Kurikulum, metodika, pedaqogika". Bakı- 2022.